AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT
VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

100 il
1923-2023

ISBN- 978-9952-39-080-3

AZƏRBAYCAN SƏNƏTŞÜNASLIĞI ŞƏRQ-QƏRB DİALOQU KONTEKSTİNDƏ ADLI BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN

MATERİALLARI

BAKI - 2023

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ISBN- 9 7 8 - 9 9 5 2 - 39 - 0 8 0 - 3
DOI 10.5281/zenodo.8382162

AZƏRBAYCAN SƏNƏTŞÜNASLIĞI ŞƏRQ-QƏRB DİALOQU KONTEKSTİNDƏ ADLI BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN

MATERİALLARI

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyinə həsr olunur

Konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 06.02.2023-cü il tarixli 3-29-50/1D-04/2023 qərarına əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir.

BAKI– 2023

МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ

АЗЕРБАЙДЖАНСКОЕ ИСКУССТВОВЕДЕНИЕ В КОНТЕКСТЕ ДИАЛОГА ВОСТОК-ЗАПАД

МАТЕРИАЛЫ МЕЖДУНАРОДНОЙ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ

Посвящается 100-летию Азербайджанского государственного университета культуры и искусств

БАКУ – 2023

MINISTRY OF SCIENCE AND EDUCATION OF AZERBAIJAN REPUBLIC
AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS

AZERBAIJANI ART CRITICISM IN THE CONTEXT OF EAST-WEST MATERIALS DIALOGUE OF THE REPUBLIC SCIENTIFIC-PRACTICAL CONFERENCE

Dedicated to the 100th anniversary of Azerbaijan State University of Culture and Arts

BAKU – 2023

ELMİ REDAKTOR: ***Sədaqət Əliyeva***

Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent

Redaksiya heyəti:

Səbinə Namazova

Elm və doktorantura şöbəsinin müdiri

Ülkər Rzayeva

"Sosial-mədəni fəaliyyət" kafedrasının müəllimi

Sevil Süleymanlı

Korrektor

Sevinc Məmmədova

Elm və doktorantura şöbəsinin mütəxəssisi

Sabir Abbaszadə

ADMIU-nun Sosial Media Meneceri

Azərbaycan sənətşünaslığı Şərq-Qərb dialoqu kontekstində (Bakı şəhəri, 17 noyabr 2023-cü il): ((Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyinə həsr olunur): (beynəlxalq elmi - praktiki konfransının materialları)(məqalələr toplusu)) red. Heyəti: S.Namazova, Ü.Rzayeva, S.Məmmədova, S.Abbaszadə; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – Bakı: ADMİU, 2023.-438səh.

UOT: 0069.

Elfira Məlikova
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
E-mail:elfiramelikova@gmail.com

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNDƏ MUZEYŞÜNASLIQ İXTİSASININ TARİXİNƏ DAİR

Xülasə: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində əsası qoyulan Muzeyşünaslıq ixtisasının 30 ildən artıq bir müddətdə inkişaf edərək yüksək məqama çatması böyük əmək nəticəsində baş vermişdir. Əsası ADMİU-nun Sənətşünaslıq fakültəsində qoyulan Muzeyşünaslıq daha sonra yaradılan Kulturologiya fakültəsinin tərkibinə daxil olmuşdur. Professional muzey işçisinin hazırlanması üçün yaradılan bu ixtisasın məzunları iyirmi beş ildən çoxdur ki, Respublikanın müxtəlif muzeylərində, Mədəniyyət Nazirliyində, ADMİU-nun Muzeyşünaslıq kafedrasında və s. yerlərdə çalışırlar.

Universitetimizdə Muzeyşünaslıq ixtisası üzrə dərs deyən ilk müəllimlərin demək olar ki, əksəriyyəti Mədəni-maarif fakültəsini (hətta ilk məzunlarından olan Rüfət Şərifovun adını çəkmək olar) bitirən məzunlardır. Başlanğıc mərhələdə Muzeyşünaslıq ixtisası üzrə dərs deyən ilk müəllimlər: Ramiz Ağayev, Rüfət Şərifov, Telman Haqverdiyev, Sabir Əmirxanov, Yeganə Eyvazova, Afət Allahverdiyeva, İradə Verdiyeva, E.Məlikova-Qurbanova, Mübariz Süleymanov, İlqar Hüseynov və muzeylərdən dəvət edilən əməkdaşlardan: Röya Tağızadə (Azərbaycan xalq tətbiqi sənəti və Azərbaycan xalçası muzeyinin direktoru), Məhəbbət Mehdiyeva (N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işlər üzrə müdir müavini), Hicran Sadıxzadə (Maestro Niyazinin mənzil muzeyinin direktoru), Mira Məmmədxanova (Azərbaycan xalq tətbiqi sənəti və Azərbaycan xalçası muzeyi fondunun baş mühafizi) və Xədicə Əsədova (Azərbaycan xalq tətbiqi sənəti və Azərbaycan xalçası muzeyinin elmi işçisi) olmuşdur.

Universitetimizin mədəni-maarif sahəsində özünün yetişdirdiyi müəllim kollektivi Respublikada ilk dəfə olaraq Muzeyşünaslıq ixtisasının əsasını qoyanlardandır. Muzeyşünaslıq kafedrası yaradılarkən ilk kafedra müdiri T.Haqverdiyev olmuşdur. Daha sonra (Respublikada ilk Ali təhsilli sənətşünas-alim) Ramiz Ağayev uzun müddət Muzeyşünaslıq kafedrasına rəhbərlik etmişdir. 1992-ci ildə ADMİU-da ilk dəfə olaraq aspirantura açılmış və muzeyşünaslıq ixtisası üzrə də yer ayrılmışdır. Aspiranturada (əyani şöbədə) E.Qurbanova-Məlikova təhsil almış və Muzeyşünaslıq üzrə ilk namizədlik dissertasiyası olan "Azərbaycanda bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu" (İxtisas – 17.00.07. Muzeyşünaslıq) sənətşünaslıq namizədi alimlik dərəcəsi almışdır. Daha sonra: A.Zeynalova, H.Sadıxzadə, M.Məmmədxanova, E.Kazımova, N.Cəfərova, N.Əliyeva, A.Mikayıllı, N.Bağırova, G.Həsənova muzeyşünaslıq üzrə namizədlik dissertasiyası müdafiə etmişlər. 2011-ci ildə ADMİU-da Muzeyşünaslıq ixtisası üzrə iki doktorluq mövzusu təsdiq edilmişdir. Y.Eyvazovanın "Tarix və mədəniyyət abidələrinin muzeyşünaslıq kontekstində dəyərləndirilməsi" və E.Məlikova-Qurbanovanın "Muzeyşünaslığın tarixi, onun elmi-nəzəri əsasları və metodları" adlanır.

Açar sözlər: *muzeyşünaslıq, elm, universitet, elmi əsərlər, alim.*

Azərbaycanda muzey işi tarixinin mərhələli şəkildə öyrənilməsi çağdaş muzeyşünaslığımızın əsas mövzularındandır. 1980-ci ildə Azərbaycan SSR-i Mədəniyyət nazirliyi tərkibində muzeylərə metodiki yardım göstərmək üçün Muzey işi üzrə Elmi Metodiki kabinə yaradıldı. 1980-ci ildə artıq Azərbaycanda ilk Dövlət muzeyinin yaradılmasından 60 il keçirdi. Yarım əsirdən artıq müddət ərzində Azərbaycan muzeyləri tarixçi, ədəbiyyatşünas, sənətşünaslar və pedaqoqların böyük çalışqanlığı nəticəsində formalaşmağa başlamışdır. Azərbaycanda professional muzey təhsilinin başlanğıcı məhz 1920-ci il sayılır.

"Elmi metodiki kabinəyə rəhbərlik tarixçi alim Valentin Yakovleviç Qarnika tapşırıldı. "Muzey işi üzrə Elmi Metodiki kabinənin yaradılması və fəaliyyəti Azərbaycana ilk dəfə "Muzeyevedeniye", "Muzeyşünaslıq" anlayışını gətirdi." (3,s.129).

Elmi Metodiki Kabinəni yaratmaqda məqsəd Respublika üzrə fəaliyyət göstərən muzeylərə metodiki yardım göstərmək, o cümlədən muzey işinin düzgün təşkilində iştirak etmək kimi bir sıra mühim işlərin planlı şəkildə həyata keçirilməsi əmri verilmişdir. Belə ki, burda çalışan işçilərin təkcə Bakı şəhərində deyil, eyni zamanda bölgə muzeylərinə nəzarət etməsi üçün ezam edilmələri, muzeylərin vəziyyəti ilə yaxından tanış olmaları, muzey fəaliyyəti ilə əlaqədar elmi mənbələrı (metodiki vəsait, metodiki tövsiyə, proqram, elmi məqalə və s. şəklində) muzeyə təqdim etmələri, eyni zamanda ekspozisiyanın yenidənqurulmasına yardım edərək muzey işçilərinə muzey işi ilə əlaqədar mühazirələrin oxunması planlaşdırılırdı. Məhz Bu səbəbdən də kabinin öz kitabxanası var idi. Burada SSRİ məkanında, xüsusilə Moskva və Leninqrad (hazırda Sankt-Peterburq) şəhərlərində fəaliyyət göstərən Rusiya EA və Mədəniyyət İnstitutlarının müvafiq kafedralarından elmi toplular, dərsliklər, monoqrafiyalar, metodiki vəsaitlər, proqramlar sifariş edilirdi. Məhz tarixçi-alim Valentin Yakovleviç Qarnikin Azərbaycanın muzey tarixi haqda apardığı tədqiqatların nəticəsi olaraq "İstoriko-kraevedçeskiye muzeyi Azerbaydjana" adlı elmi əsəri - "Azərbaycanın tarix-diyarşünaslıq muzeyləri" 1963-cü ildə "Oçerki istori muzeynoqo delo v SSSR" adlı elmi topluda çap edilmişdir. 1971-ci ildə isə həmin topluda "Oçerki istorii Muzeynoqo delo v Azerbaydjanskoy SSR (1920-1964)" adlı (Azərbaycan SSR-də muzey işinə dair oçerklər) elmi əsəri çap edilmişdir.

1991-ci ildə Respublikada ilk dəfə olaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Muzeyşünaslıq ixtisasının əsası qoyuldu. ADMİU-da Muzeyşünaslıq ixtisasının kamilləşməsi üçün metodiki mərkəzin topladığı və tərcümə etdiyi materiallara böyük ehtiyac var idi.

1991-ci ildə Respublikada ilk dəfə olaraq muzeylər üçün professional muzey işçisi, yəni muzeyşünasların hazırlanması üçün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tərkibində "Muzeyşünaslıq" ixtisası yaradıldı. ADMİU-da əsası qoyulan Muzeyşünaslıq ixtisası üzrə aspiranturanın açılması Respublikanın muzeyləri ilə və onların təhkim olunduğu Mədəniyyət Nazirliyi ilə əlaqələrin qurulmasına böyük təkan verdi. (Aspiranturada təhsil aldığım illər məhz bu kabinənin kitabxanasında toplanan əsərlər və tarixçi-muzeyşünas alim V.Y.Qarnikin keçdiyi mühazirələr nəticəsində muzeyşünaslıq elminə yiyələnmişəm). Bu mərkəzin işçilərinin muzeyşünaslıq sahəsində olan tərcümələri, metodiki göstəriciləri, metodiki vəsaitləri, metodiki-göstəriciləri, proqramlar və s. yardımçı vəsaitə çevrildi.

Sənətşünaslıq fakültəsinin tərkibində fəaliyyətə başlayan Muzeyşünaslıq kafedrası, daha sonra Kulturologiya fakültəsinin tərkibinə daxil oldu. Kafedrada muzeyşünaslıq ixtisası üzrə dərs demək mədəni-maarif ixtisasını mənimsəmiş bir sıra mütəxəssislərə tapşırıldı. Muzeyşünaslıq sahəsində kurs keçəcək müəllimlər – dünya muzeylərinin tarixini, yaradıcılıq prosesini, muzey işini tam bilməli idi. Muzeyşünaslığın nəzəriyyəsini mənimsəməklə birgə muzey təcrübəsi də öyrənilərək mənimsənilməli idi. Kafedrada tədricən Muzeyşünaslıq elmi tərəfindən sistemli şəkildə öyrənilən muzey tarixi, nəzəriyyəsi və muzey mənbəşünaslığı qavranılmağa başladı. Lakin, Muzeyşünaslığa dair elmi əsərlərin tapılması, əldə edilməsi bir problem olaraq qalırdı. Paralel aparılması mühüm olan iki yanaşma həll edilməli idi. Birinci: Tədris planında Muzeyşünaslıq ixtisası üzrə keçiriləcək fənlərin ilk növbədə proqramlarını tərtib etmək. Məhz buna görə də muzey işi haqda yazılan ədəbiyyatları araşdıraraq tapmaq; ikinci: ilk növbədə Muzeyşünaslığa və muzeylərə dair elmi materialları rus dilindən Azərbaycan dilinə tərcümə etmək. Muzeyşünaslıq kafedrasına gərgin iş davam edir və fəaliyyətin sürətləndirilməsi tələb olunurdu. Kafedranın müəllimləri dosentlər Ramiz Ağayev, Telman Haqverdiyev və baş müəllim Rüfət Şərifovun birgə fəaliyyəti nəticəsində elmi-tədris prosesinin əsası qoyuldu. Daha sonra bu prosesə Sabir Əmirxanov və Elfira Qurbanova-Məlikova da (1992–1995-ci illərdə Muzeyşünaslıq üzrə aspiranturada təhsil almaqla bərabər) qoşuldu. Proqramların, kompleks proqramların, metodiki vəsaitlərin, metodiki tövsiyələrin və elmi məqalələrin hazırlanaraq çap edilməsi sistemləşdirilərək həyata keçirilirdi. Lakin, Azərbaycan

dilində hələ də Muzeyşünaslıq üzrə dərsliyin olmaması tələbələr üçün çətinlik yaradırdı. Məhz bu səbəbdən kafedra müəllimlərinin, o cümlədən saat hesabı dərs demək üçün muzeylərdən dəvət edilən, muzey əməkdaşları: Hicran Sadıxova, Xədicə Əsədova ilə birgə elmi-yaradıcılıq fəaliyyəti nəticəsində XVI fəsildən ibarət Muzeyşünaslıq üzrə ilk dərslik olan "Muzeyşünaslıq" 2002-ci ildə işıq üzü gördü (Dərslik sənətşünaslıq namizədi, dosent Ramiz Ağayev, pedaqoji elmlər namizədi Sabir Əmirxanovun və fəlsəfə elmləri namizədi Abdin Əlizadənin tərtibi və ümumi redaktəsi ilə çapa hazırlanmışdır). Ön söz Ramiz Ağayevin, I,II və VII fəsillər Sabir Əmirxanovun, III fəsil İlqar Hüseynovun, IV və V fəsillər Afət Allahverdiyevanın, VI fəsil Hicran Sadıqzadənin (Niyazinin ev muz. direktoru), VIII fəsil Rüfət Şərifovun, IX fəsil İradə Verdiyevanın, X fəsil Elfira Qurbanovanın (Məlikova), XI, XIV fəsillər Yeganə Eyvazovanın, XII fəsil Ramiz Ağayev və İlhamə Səfərovanın, XIII fəsil Abdin Əlizadənin, XV fəsil Mübariz Süleymanlının, XVI fəsil Xədicə Əsədovanın müəllifliyi ilə yazılmışdır (1, s.439).

1998-ci ildə ADMİU-da yaradılan Magistraturada Muzeyşünaslıq ixtisası üzrə qəbul keçirildi. Magistr mövzularının ilk rəhbərləri: Tarix muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Xalq Tətbiqi sənəti və Xalça Muzeyinin direktoru Röya Tağızadə və N.Gəncəvi adına Ədəbiyyat Muzeyinin elmi işlər üzrə müavini Məhəbbət Mehtiyeva olmuşdur. Magistraturaya rəhbərlik etdiyim dövrdə (1998–2000) elmi-işlər üzrə prorektor Solmina Dadaşovadan aldığım təlim, onun bütün prosesi proessional şəkildə idarə etməsi və başlanğıc mərhələdə çətinlikləri dəf etməsi böyük diqqətə layiqdir.

Muzeyşünaslıq kafedrası təşkil edildiyi zamandan aşağıda adları çəkilən əsərlər işıq üzü görmüşdür. Onlardan: E.Qurbanova-Məlikova "Dünya muzeyləri". Kataloq (Ön söz M.N.Nəcəfov yazmışdir) Metodik-tövsiyə. Bakı. 1995.; "Muzeyşünaslıq" kursu üzrə kompleks tədris proqramı. Bakı 2000.; 2002-ci ildə kafedranın professor və müəllim heyətinin birgə əməyi nəticəsində "Muzeyşünaslıq" dərsliyi hazırlanmışdır. O cümlədən, R.Ağayev, E.Qurbanova-Məlikovanın birgə əməyi nəticəsində hazırlanan "Azərbaycanın memorial-xatirə ev muzeyləri". Dərslik. Bakı. 2006; A.Zeynalova "Muzey ekspozisiyalarının estetik əsasları". Monoqrafiya. Bakı.Elm.2007.; S.Əmirxanov, İ.Hüseynov "Dünya muzeyləri və tarixi mədəniyyət abidələri". Bakı. 2008.; Y.Eyvazova "Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı". Dərs vəsaiti. B.2010.; E.Qurbanova-Məlikova "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası" Dərslik.B.2011; E.Qurbanova-Məlikova "Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu". Monoqrafiya. Bakı 2014.; Y.Eyvazova "Abidəşünaslıq". Monoqrafiya. B. 2017 və s. göstərmək olar. Onlarla proqram, metodiki tövsiyə və bir sıra metodiki vəsaitlərin çap edilməsi də kadr hazırlığı prosesinin ən mühüm problemlərinin həlli istiqamətində uğurlu addım kimi qiymətləndirilə bilər. Artıq "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə kadr hazırlığında 30 ildən çox təcrübə qazanılmış, elmi kadrların potensialının gücləndirilməsi, mənəvi dəyərlərin daha dərindən dərk edilməsi yeni müvəffəqiyyətlərə yol açmışdır." (2, s.20). Daha sonra: Məlikova-Qurbanova E. Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsilə inkişafı. Bakı: "Elm", 2019; Məlikova-Qurbanova E. II cilddən ibarət "Azərbaycan muzeyşünaslığı" (2021, 2022) monoqrafiyası və s. elmi əsərlər çapdan çıxmışdır.

Davamlı olaraq Beynəlxalq və Respublika konfranslarında müəllimlərin muzeyşünaslıq sahəsində elmi məqalələri çap edilir.

Muzeyşünaslığın dörd struktur elementi: muzey tarixi, muzey nəzəriyyəsi, muzey mənbəşünaslığını və tətbiqi muzeyşünaslığı özündə ehtiva edir. Demək muzeylər muzeyşünaslığın özəyini və mənbəyini təşkil edir. Muzeyşünaslıq tarix elminin tərkib hissəsidir. Lakin, bir sıra elmlərlə o cümlədən, sənətşünaslıq, pedaqogika, psixologiya elmləri ilə bağlı olan muzeylərin məhz bu istiqamətdə apardığı iş prosesi muzeyşünaslıq qarşısında daha geniş mövzuların praktiki olaraq öyrənilməsi üçün əsas şərtə çevrilir. Bu qlobal problemlərdən biri idi. Məhz ona görə də bu gün də muzey fəaliyyətini öyrənən müxtəlif elm sahibləri öz tədqiqatlarını azad şəkildə həyata keçirə bilir. Bu reallıq Muzeyşünaslar qarşısında kompleks tədqiqatların aparılmasını tələb edir.

ADMİU-nun Kulturologiya fakültəsinin tərkibində fəaliyyət göstərən "Muzeyşünaslıq" kafedrasının "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisasının əhəmiyyətini önə çəkərək demək lazımdır ki, muzeyşünas kadrların universitetdə təhsil aldığı müddətdə muzey fəaliyyəti ilə əlaqəli mühüm faktorlarının dərindən təhlil edilməsi və bu problemin müvəffəqiyyətlə həll edilməsi üçün təkliflər verilməlidir. Muzey rəhbərləri ilə birgə layihə işlənməlidir. Kafedrada muzeyşünas kadrların hər birinin gələcək fəaliyyətinin məhz öz ixtisası yönümündə planlaşdırılması və təminatı məqsədi qarşıya qoyulur. Muzeylərdə təcrübə zamanı muzeyşünaslar "real muzey işi" ilə tanış olur.

"Təcrübə zamanı muzeyşünas tələbələrlə tanışlıq Universitet və muzeylərin real əlaqələrinin həllini asanlaşdırır. Muzeylər tərəfindən muzey üçün tələb olunan mütəxəssislərin işə cəlb edilməsi sorğusunun Universitetə daxil olması muzey işində yeni irəliləyişlər edə bilər" (2, s.7-8).

Daim dəyişən dünya muzeylərə təsirini sürətləndirir və bu Muzeyşünaslıq elminə böyük təzyiq prosesini reallaşdırır. Bir neçə aspektdən araşdırmaların aparılmasını tələb edən muzeyşünaslıq tədqiqatları bir sıra elmlərin əsası ilə tanış olaraq onları təhlil etmək kimi tələbi qarşıya qoyur. Məhz bu da muzeyşünaslıq sahəsində araşdırma aparan tədqiqatçıların elmi biliklərinin məcmuəsinin ölçüsündən asılı vəziyyətdə qalır. Muzeyşünaslığın spesifikliyi məhz bundadır. Belə ki, mərhələli şəkildə müvafiq elmləri öyrənmək danılmaz problemə çevrilir. Son nəticədə belə qənaətə gəlmək olar ki, "həqiqi Muzeyşünaslığ"ın qavranılması çox mürəkkəb prosesin düzgün öyrənilməsi zamanı mümkündür. Bu prosesi mükəmməl məntiqlə idarə edən tədqiqatçılar tələb olunur. Muzeyşünaslıq kafedrasının professor-müəllim heyyəti kreativ düşüncəyə malik, yeni informasiyaları əldə etmək bacarığına malik olan davamçıları yetişdirməklə məşğuldur.

ЭЛЬФИРА МЕЛИКОВА-QURBANOVA

ИСТОРИЯ СПЕЦИАЛЬНОСТИ «МУЗЕЕВЕДЕНИЕ» В АЗЕРБАЙДЖАНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ КУЛЬТУРЫ И ИСКУССТВ

Резюме: Развитие специальности музейного дела, основанной в Азербайджанском государственном университете культуры и искусств, развивалось на протяжении более 30 лет и в результате большой работы поднялась на высокое положение. Музееведение, которое было основано на факультете искусствоведения АДМИУ, позже было включено в состав факультета культуры. Выпускники этой специальности, созданной для подготовки профессиональных музейных работников, более двадцати пяти лет работают в различных музеях республики, Министерстве культуры, на кафедре музейного дела АДМИУ и др. они работают на местах.

Практически большинство первых преподавателей, преподававших в области музейного дела в нашем университете, были выпускниками факультета культуры и образования (можно даже упомянуть имя Руфата Шарифова, который был первым выпускником). Первые преподаватели, преподававшие в области музейного дела на начальном этапе: Р. Шарифов, Т. Хагвердиев, С. Амирханов, Х. Садыхзаде, А. Аллахвердиева, Ю. Эйвазова, И. Вердиева, Э. Маликова-Гурбанова, Х.Асадова, М.Сулейманов, И.Гусейнов. С этой точки зрения преподавательский состав нашего университета в области культуры и образования, который он подготовил сам, одним из первых в республике заложил основы специальности «Музееведение». Рамиз Агаев, первый высокообразованный искусствовед-ученый в республике, долгое время возглавлял отдел музейного дела. В 1992 году в АДМИУ впервые была открыта аспирантура. Э.Гурбанова (Маликова) училась в аспирантуре (на изобразительном отделении) и получила степень кандидата искусствоведения, защитив первую кандидатскую диссертацию по музейному делу «Роль художественных музеев в развитии художественной культуры в Азербайджане». (Специализация – 17.00.07. Музейное дело). Позже: А.Зейналова, Х.Садыхзаде, Э.Кязымова, Н.Джафарова, Н.Алиева, А.Микаиллы, Н.Багирова, Г.Гасанова защитили кандидатские диссертации по музейному делу. В 2011 году в АДМИУ утверждены две докторские темы по музейному делу. Она

называется «Оценка памятников истории и культуры в контексте музеологии» Ю.Эйвазовой и «История музеологии, ее научно-теоретические основы и методы» Э.Маликовой-Гурбановой.

Ключевые слова: *Музееведение, наука, университет, научные труды, ученные.*

ELFIRA MELIKOVA-QURBANOVA

ON THE HISTORY OF THE MUSEUM STUDIES SPECIALTY AT THE AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS

Summary: The development of the specialty of Museum studies, which was founded at the Azerbaijan State University of Culture and Arts, has developed over a period of more than 30 years and has risen to a high position as a result of great work. Museum Studies, which was founded in the Faculty of Art Studies of ADMIU, was later included in the Faculty of Culture. Graduates of this specialty, which was created for the training of professional museum workers, have been working in various museums of the Republic, the Ministry of Culture, the Department of Museum Studies of ADMIU, etc. for more than twenty-five years. they work in places.

Almost the majority of the first teachers who taught in the field of museum studies in our university were graduates of the Faculty of Culture and Education (one can even mention the name of Rufat Sharifov, who was the first graduate). The first teachers who taught in the field of museum studies at the initial stage: R. Sharifov, T. Hagverdiyev, S. Amirkhanov, H. Sadikhzade, A. Allahverdiyeva, Y. Eyvazova, I. Verdiyeva, E. Malikova-Gurbanova, Kh. Asadova, M. Suleymanov, I. Huseynov. From this point of view, the teaching team of our University in the field of cultural and education, which he trained himself, is one of the first in the Republic to lay the foundation of the specialty of Museum Studies. Ramiz Agayev, the first highly educated art critic-scientist in the republic, headed the Department of Museum Studies for a long time. In 1992, postgraduate studies were opened for the first time at ADMIU. E. Gurbanova (Malikova) studied at the post-graduate course (in the visual department) and received the candidate of art studies degree with her first candidate's dissertation in Museum studies "The role of art museums in the development of artistic culture in Azerbaijan" (Specialization - 17.00.07. Museum studies). Later: A. Zeynalova, H. Sadikhzadeh, E. Kazimova, N. Jafarova, N. Aliyeva, A. Mikayilli, N. Baghirova, G. Hasanova defended their PhD thesis on museum studies. In 2011, two doctoral topics in Museum Studies were approved at ADMIU. It is called "Evaluation of historical and cultural monuments in the context of museology" by Y. Eyvazova and "History of museology, its scientific-theoretical bases and methods" by E. Malikova-Gurbanova.

Keywords: *museology, the science, university, scientific works, scientist.*

ƏDƏBİYYAT SİYAHISI:

1.Muzeyşünaslıq. (dərslik). B., "Mars-Print" 2002. 448 səh.

2.Məlikova-Qurbanova E. Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsilə inkişafı. Bakı: "Elm", 2019. – 108 səh.

3.Məlikova (Qurbanov) E. Azərbaycan muzeyşünaslığı (Monoqrafiya). II cild, Bakı: "Elm", 2022, 464 səh.

9 789952 390803